Müxtəlif şeirlər

MİRZƏ CƏLİLƏ

Göz açdın həyata vətənin nalə səsindən
Bəxş etdi bizə oğlunu mərd Azərbaycan.
Olmaz! – dedin, – olmaz! – dedin,
ey Mirzə Cəlil, sən,
Azad bu Vətən qalxmasa qəflət yuxusundan.

Qəlbin alışıb yandı, gözün doldu-boşaldı,
Güldün, gülüşün ah ilə əfqandı, kədərdi.
Gördün vətən övladı yaman günlərə qaldı.
Göylər belə, yerlər belə çəkməzdi bu dərdi,

Azadlıq oldu təbin,
Dəryalar mürəkkəbin,
Meşələr qələmin oldu,
El dərdi ələmin oldu.

Əlsiz, ayaqsız,
Köməksiz, dayaqsız,
Qədim, qədim, qədim
Bir milləti oyatdı yuxudan
hər sözüm.

Söylədin, ey xalq,
keçsin gecələrin,
Gülsün gündüzün.
Oyan, oyan, oyan,
Bax, bax, bax!

Oyanır cahan, oyanır aləm, oyanır həyat.

Cəhaləti at!
Səfaləti at!
Nadanlığı at!
Avamlığı at!

Bu Odlar yurdunda yeni bir aləm yarat!

Doğdu aprel günəşi
Salamladı cllləri.
Başa çatdı ellərin
Azadlıq əməlləri.
Bir cahana sığmadı
Azərbaycan, vüqarın.
Bəxtəvərdir, ey vətən
Qızların oğulların.

Ey gözəl, ey əziz ana torpağı
Mehriban, ey təmiz ana torpağı,
Azərbaycanım, Azərbaycanım!
Elmin, hünərin dünyanı heyran eləyibdir,
Əhsən, vətən oğlu!
Neftin gecəni nurlu çıraqban eləyibdir,
Əhsən, vətən oğlu!
Baxdıqca çölü, düzləri min rəngə çalır bax,
El Azərbaycanı gülüstan eləyibdir,
Əhsən, vətən oğlu!
Bax, Mirzə Cəlil, Fatma, Tükəzbanlara bir bax.
Övladi-Vətən gör necə ad, san eləyibdir!

Arzuların verdi bəhər
Bu diyarda,
Torpaq azad, el bəxtəvər
Bu diyarda.
Əməllərin yetir başa,
Nur çilənir dağa, daşa,
Bu diyarda.
Ürəklərdə var heykəlin
Mirzə Cəlil, Mirzə Cəlil,
Mirzə Cəlil!..

1966

ARZULAR

Gənc deyiləm, bilirəm, qırxa yaxındır yaşım,
Sevmişəm, sevilmişəm, köçüm – külfətim də var.
Sevgilim dönüb olmuş indi həyat yoldaşım,
Arzularım bar verib, meyvələri – uşaqlar.

İndi öz evimdədir gözlərimdə gördüyüm,
Sevib könül verdiyim qız, həyat yoldaşımdır.
On üç il gün keçirib, birgə ömür sürdüyüm
Sözündə, ilqarında düz, həyat yoldaşımdır.

İndi nə intizardan ürəyim döyünməyir,
Nə "Birdən gəlməz" deyə əsim-əsim əsmirəm .
Nə azı dörd-beş dəfə soyunub geyinməyir,
Nə də vaxtından qabaq görüşə tələsmirəm.

İndi dilim dolaşmır sözümü deyən zaman,
Özümü itirmirəm hər dəfə görüşəndə.
(Ancaq neyləyim ki, mən, belə yaranmış insan
Qəlbinə də dəyirəm, bəzən yeri düşəndə).

Atalar bilər bunu, ömrümün üç meyvəsi
Ürəyimdən, gözümdən, özümdən əziz olmuş.
Onların dil açarkən, bircə "ata" deməsi
Həyatımın ən şirin sözündən əziz olmuş.

Kiçik ailəmizdə günlərimiz keçir şən.
Demirəm ki, yuxusuz gecələr olmayıbdır
Sübhədək dayanmışıq beşik başında bəzən,
Amma ürəyimizdə qəm-kədər olmayıbdır!

Sevgilim oyanmasın deyə şirin yuxudan,
Bəzən səhərə kimi yummamışam gözümü.
Uşaqlardan birisi "ana!" çağıran zaman,
Beşiyinin üstünə atmışam mən özümü.

Qolum yastığa dönmüş, sinəm yorğana dönmüş,
Nəfəsimlə isinmiş uşaqların bədəni.
Büdrəyib yıxılanda ürəyim qana dönmüş,
Onların gülüşləri bəxtəvər etmiş məni.

Qınamayın a dostlar, söyləyirəm özümdən,
Görürəm ki, mənim ilk arzularım verir bar.
Saçlarıma düşsə də indi yavaş-yavaş dən.
Amma qəlbimdə hələ çoxlu arzularım var.

Onlar sizə bəllidir, desəm də, deməsəm də,
Bir ata ürəyilə düşünürəm bunu mən.
Deyirəm, hicran dağı qövr etməsin sinəmdə
Sevincim bir quş kimi qoy uçmasın əlimdən!

Qızılcanın ayağı kəsilsin qapımızdan,
İstərəm mənə gəlsin onlara gələn qada.
Çıxsınlar polad kimi çoxlu qışdan, payızdan,
Hələ çox arzularım bağlıdır üç övlada.

Nəfəsimlə isidib böyütmüşəm onları,
Yad əllər dolaşmasın xoşbəxt beşiklərində!
Ömrüm başa yetməmiş, hələ deyildir yarı,
Nəfəsimlə durmuşam yenə keşiklərində!

İstəmirəm büzülsün bir balamın dodağı.
Gülsə bütün balalar bütün dünya gül olar.
Qəzəbimdən ah desəm mən bir ata sayağı,
Bombalar nəfəsimlə partlamadan kül olar!

Qoy yenə sıxlaşmasın göydə qara buludlar,
Atalar övladından bir daha ayrılmasın!
Qoy ellər qardaş kimi ömr eləsin bəxtiyar,
Tüfənglər mələşməsin, qılınclar sıyrılmasın!

Bahar olsun, gül açsın, azad yaşasın insan,
Dünyanın hər yerində bütün torpaqlarında!
Sevənlər ayrılmasın, balaların hər zaman
Gülüş olsun üzündə, nəğmə dodaqlarında!

BİR DƏSTƏ GÜL İLƏ

Atam çoxdan köçüb
Dünyadan.
Acı, şirin xatirələr
Keçir gözümdən
Birər-birər.
Uşaqdım, ərköyün, dəcəl.
Yadımdadır, əvvəl
Məni öpərdi, sonra
Bacılarımı.
Sadalardım ona
Bacılarımdan çəkdiyim
Acılarımı...
Qulaq asar, asardı,
Bağrına basardı.
Bığları eşməydi,
Saçı gümüşü.
Yadımdadır atamın
Üzü, baxışı, gülüşü.
Bir də dənizi sevərdi
Bəlkə də məni sevdiyi qədər...
Yadımdadır,
Zərli papağı vardı
Belində zərli kəmər
Yadımdadır...
Yox, heç nə daha
Yadımda deyil!
Keçmiş neçə il,
Onun çürümüş sümükləri
Otuz ildən bəri.
Mənim bərkimiş sümüklərim,
Ayağa qalxmışam,
Adam olmuşam, buyam!
Məni özündən artıq sevən
Kişinin oğluyam!
Bəli, məni çox sevərdi
Bəlkə də mən idim

Həm onun şadlığı,
Həm onun dərdi!
Bunu, ataları bilər
Yana-yana
Bunu balalar anlar
Yaşa dola-dola.
Ata ola-ola,
Qana-qana!
Amma...
Qananacan,
Ata həsrətilə yananacan,
Köçəndə qış, gələndə bahar,
Gül-çiçək bir yana
Boş ayaqla,
Qanacaqla
Ata hüzuruna getməyə nə var?
Ay övladlar, ay övladlar!

ELƏ BİL Kİ...

Elə bilki dünəndi...
Ayaq yalın, baş açıq
Min haray qoparardım.
Dəcəldim, ərköyündüm,
Başdan tük aparardım.
Elə bilki dünəndi...
Əlimdə təzə çantam
Yanımda anam, atam,
Ah... nece sevindilər!
Dərsə getdim bir səhər.
Elə bilki dünəndi...
Ürəyimə ilk dəfə
Bir qızın eşqi düşdü.
Günüm, ayım o qızın
Xəyalilə ötüşdü.
Babalar söyləmişkən:
O, gün oldu, mən də qar.

Yaman dərdə düşürmüş
Ürəkdən vurulanlar.
Elə bilki dünəndi...
Göy gurladı, yer əsdi,
Alay-alay qoşunlar
Cəbhələrə tələsdi.
Anam, əlində fincan,
Çölə çıxdı dalımca,
Yana-yana atdı su,
Gözlərindən yaş olub
Axdı ürək arzusu.
Elə bil ki, dünəndi...
Qayıtdığım davadan,
Barıt iyi gəlmədi,
Burnumuza havadan,
Xatirələr nə çoxdur
Şirin, acı, qara, ağ,
Bəzən yada salırsan
Xəyallara dalaraq.
Acının öz yeri var,
Şirinin öz məkanı,
Xəyallar ağuşunda
Yaşatmırmı insanı?
Elə bilki dünəndi...
Totuq bir oğlum oldu.
Eşqimin ilk müjdəsi.
İndi də qulağımdan
Getmir ağlamaq səsi,
İndi də gözlərimdən
Getmir imək ləməsi.
Sonra bir qızım oldu,
Bir oğlum da, son beşik
Əlindən zara gəldi
Həyət-baca, ev-eşik.
Elə bilki dünəndi...
Komsomola keçdiyim,
Cəbhədə, od içində
Diz çöküb, and içdiyim.

Elə bilki dünəndi...
Toyum da, düyünüm də,
Elə bilki dünəndi...
Otuz il bundan qabaq
Keçirdiyim günüm də!
Elə bilki dünəndi...
Doğrudan da dünəndi,
Tamam oldu qırx yaşım.
Dünənlərin yolunda
Gördüm ağarıb başım.
Gördüyüm dünənlərin
Xatirəsi demirəm
Axdı, getdi sel kimi,
Başsız əsən yel kimi.
Qırışları üzümdə,
İntizarı gözümdə,
Söhbətimdə, sözümdə,
İzləri qaldı, ancaq,
Dostlar, söyləməyin ki,
Zeynal qocaldı, ancaq.
Vaxt gələr, oğlum Əli,
Fikirli düşüncəli,
Məni gətirər yada,
Söyləyər əlbət, o da
– Elə bilki dünəndi...
Atam bu evdə sağdı,
Qocalıq olmasaydı,
Yüz il yaşayacaqdı!..

AYAQ SƏSLƏRİ

Yadımdadır, hər axşam, nurlu günəş batanda
Mənim uşaq qəlbimin öz günəşi doğardı.
Ayağının səsləri qulağıma çatanda
Sevincim nə yerlərə, nə göylərə sığardı.

Ah, sənsiz keçirərkən günümü küçələrdə
Gözlərim zaman-zaman gəzər, səni arardı.
Ah, gözüm görməsəydi, könlüm düşərdi dərdə,
Çünki kiçik qəlbimin böyük aləmi vardı.

Yadımdadır, hər səhər qapını örtüb yavaş,
Taleyə tapşırardın mənimlə evimizi.
Qayıdardın yanıma, bir də qaralanda qaş,
Deyərdin: – tək yaratmış oğul, yaradan bizi.

Təzə geyim görmədi, ayağım da, başım da,
Sən uda bilməyirdin bu qüssəni, bu dərdi.
Səni hər axşam çağı görən kimi qarşımda,
Əynim çılpaq olsa da, ürəyim bəzənərdi.

Gecələri ən əziz, şirin qənimət kimi
Sənin lə bir keçirər, danışardım dinərdim,
Onda mən zəhəri də içərdim şərbət kimi,
Çünki sənin qoynunda sübhədək isinərdim.

Yadımdadır bir axşam səni yenə gözlədim,
Hər keçəni anamdır deyə xeyli izlədim,
Yol üstə çox dayandım, amma daha gəlmədin,
Ümidimi bağladım lap sabaha, gəlmədin.

Qayıtmadın bir daha evimizə sarı sən,
Məni öz ağuşunda isidəydin barı sən.
Zaman keçdi, il ötdü sən məni tək qoyalı...
Aradım, gəzdim səni ürəyimdə ağrılar.

Mənim üzümə güldü həyatımın iqbalı,
Səninsə məzarına yağdı qalaq-qalaq qar.
İndi budur gecədir, anıram keçənləri;
Nə səs var, nə səmir var kiçik aşıyanımda.
Sən məni tərk edəni yalqız qoyandan bəri,
Səni hər zaman, anam, hiss edirəm yanımda!

NİYƏ GÖRƏN?

Biri qırxını yaşadı,
Dördünü aldı, boşadı.
Butöv ürəyini
Qara pul kimi xırdaladı.
Hər evdə üç il, beş il
Kişi çağrıldı adı,
qonaq kimi.
Amma,
Heç kəsə ata olmadı,
Heç kəsə ər.
Yaşadı eşqdən, məhəbbətdən
bixəbər.
Biri ürəyini vurdu,
boşadı.
Biri başını yordu,
boşadı
Könlünə kim yatdı,
Evdəkini atdı...
Həyatın bir qatı
Nazik göründü ona,
İki qatı qalın.
Fikri, xəyalı bilinmədi
Bu hərdəmxəyalın.
Neçə deyərlər, özü üçün
yaşadı.
Gördü, bəyəndi, aldı,
boşadı.
Yorulub usanmadı,
Ürəyi yanmadı –
Buraxdığı gəlinlərə,
Tifillərə.
Bəzən qızlar
Belə sinə niyə gedir
Görən ərə?!

SÖHBƏT

Qolumda saat, bir gün
Yerimə girdim,
Qulaq asdım saata:
Çıq-çıq, çıq-çıq...
Ürəyimə fikir verdim:
Tuq-tuq, tuq-tuq...
Saat,
Dedi ürəyə: – Dincini al,
Bir az yat!
Yorulmusan!
Çoxdanmı qurulmusan?
Görürəm səsin küt gəlir
Arabir.
Ürək, bərk-bərk başladı
Vurmağa,
Dedi – Öyrənməmişəm
Saat qardaş, qurulmağa.
İncidiyim olub,
Küsdüyüm olub,
Sındığım olub,
Vurulduğum olub,
Amma qurulduğum olmayıb.
Yavaş vursam da,
Bərk vursam da,
Bəzən seyrək vursam da,
Buyam, beləyəm,
Qurulmayan ürəyəm!
Burulsaydım, qurulsaydım,
Sənin kimi adım saat olardı.
Ciblərdə,
ollərdə,
hər yerdə
Yerim rahat olardı.
Mən qurulmamış,

Əl vurulmamış,
Döyünürəm.
Bununla da saat qardaş,
Öyünürəm!

GÖRÜRÜK

Hər nə var görürük:
Suyu, odu,
torpağı,
buludu,
Günəşi, ayı.
Ürəkdən savayı.
Hər nə var görürük.
Ürəyi görsəydik,
Görə bilsəydik
İçində nə var,
Cavabsız qalmazdı
Acı, şirin,
Dayaz, dərin
Suallar.

1969

AY DOST!

Məni qınayırsan, deyirsən yetər
Geceni gündüzə qatdığın sənin.
Hərdən küsmüş kimi evdən, eşikdən,
Xəyal dəryasına batdığın sənin.

Gözlərim çox görüb qaranı, ağı,
Demirəm qoymuşam dağ üstə dağı.
Gəncliyi – o gözəl, o şirin çağı,
Bir an da unutmaq olmayır, ay dost!

Təbiət təb verib, mənə yaz! – deyib,
Şairsən, yazmasan yaramaz! – deyib.
Sinən söz dəryası, könlün saz – deyib,
Götürüb çalmamaq olmayır, ay dost!

SUAL

Mənə sual verdilər:
– Əgər,
Dünyaya bir daha
gəlsəydin,
Gələ bilsəydin
İstəyin nə olardı,
Arzun nə?
Dedim: – dünyanın üzünə
Bir də gəlsəydim,
Gələ bilsəydim,
Tək,
qəribə olardım
Adamlar içində,
Dözmozdi ürək!
Bir yerdə gələydik,
Dünyaya gələ bilsəydik,
Sən, mən,
İndiki ömrümü
Yaşardım yenidən!

1967

BAŞIMIZ ÜSTÜNDƏ

Başımız üstündə
Buludsuz açıq səma
ürəklər olaydı, ürəklər!
Al-əlvan gözəl güllər
Diləklər olaydı, diləklər!
Sərin, şirin gur sular
arzular olaydı, arzular!

Çiçək kimi yağan qar
Üzümüzün rəngi olaydı.
Quşların bahar nəğməsi
Dünyanın ahəngi olaydı.
Arıların şan balı
Ən acı sözümüz olaydı, sözümüz.
Onda dərmanı, həkimi neylərdik, dostlar,
Min yaşardıq özümüz, özümüz!

1967

GEDİRİK

Əsən külək gurlamasın,
Coşan sular dayansın.
Ana günəş üfüqlərdən
Gülə-gülə boylansın.
Yollarımız heç solmayan
Qızıl rəngə boyansın.
Vətənimiz gücümüzə
Əmin olsun, inansın,
Biz suların sinəsindən
Od almağa gedirik!
Daha güclü çil-çıraqlar
Yandırmağa gedirik!

Əlimizlə qurulmuşdur
Göy sularda min ada.
Dağ üstündə duran buruq
Qazır yeri dəryada.
Sinəmizlə toqquşsa da
Min əziyyət, min qada,
Zəhmətilə yetir insan
Hər arzuya, murada,
Biz suların sinəsindən
Od almağa gedirik!
Daha güclü çil-çıraqlar
Yandırmağa gedirik!

Gücümüzə təslim olur,
Quru, dəniz asiman,
Xəzər bizi gülə-gülə
Salamlayır hər zaman.
Əzmimizlə alov çıxır
Yerin min bir qatından.
Qaranlıqda mayaq deyil,
Qəlbimizdir o, yanan,
Biz suların sinəsindən
Od almağa gedirik!
Daha güclü çil-çıraqlar
Yandırmağa gedirik!

Təbiətə qalib gəlir
Yaradanlar, quranlar,
Azadlığın sarayına
Min bir bəzək vuranlar.
Neftçi qardaş, qarşıdadır,
Daha gözəl zamanlar.
Qoy çəkilsin yolumuzdan
Qasırğalar, dumanlar!
Biz, suların sinəsindən
Od almağa gedirik!
Daha nurlu çil-çıraqlar
Yandırmağa gedirik!

Vətənimiz azadlığın
Bir sönməyən ocağı.
Bizi boya yetirmişdir
Onun ana qucağı.
Dalğalansın yer üzündə
Sülhün zəfər bayrağı.
Neftimizlə alovlansın
Səadətin çırağı,
Biz suların sinəsindən
Od almağa gedirik!
Daha nurlu çil-çıraqlar
Yandırmağa gedirik!

YORULMAMIŞAM

Sənət aləmində bir yolçuyam mən
Ömür yarı olub, yorulmamışam.
Budur, artıb yaşım, ağarıb başım,
Dağlar qarı olub, yorulmamışam.

Min gözəl görmüşəm azı yaşımdan,
Min bir canan keçib hər gün qarşımdan
Çıxmayıb bir qızın eşqi başımdan,
Etibarı olub, yorulmamışam.

Bilmişəm hər zaman, hər vaxt yerimi,
Zorla güdməmişəm mən öz xeyrimi,
Hər kəs dodaq büzür, büzsün, şərimin
Xiridarı olub, yorulmamışam.

Mən kölgə axtarıb daldalanmadım,
Kölgəsiz, qov kimi birdən yanmadım,
Kiçik şərlərim, balaca adım –
Böyük varım olub, yorulmamışam.

Günlər keçirmişəm azad, bəxtiyar,
Olmuşdur yolumda bəzən boran, qar...
Amma bu ömrümün, günümün, dostlar,
Çox baharı olub, yorulmamışam.

Əsiri olmadım şöhrətin, şanın,
Demədim məndədir ağlı dünyanın
Vətənim – bu gözəl Azərbaycanın,
Nəğməkarı olub, yorulmamışam.

BƏS MƏNİM BALAM HANI?

Biz, bir küçədə,
Bir gecədə
Deyirlər doğulduq.
Anam da söyləyərdi,
Fərqimiz olmadı,
Elə bir olduq.
Qaşımız bir:
qara.
Saçımız bir,
qara.
Gözümüz, üzümüz
qara.
Şirin demirlərmi
el arasında
Qara uşaqlara?
Qaralığın nə dərdi?
Bütün dünya
bizim kimi
günü ağ,
damağı çağ,
qara olmaq istərdi.
Qaralığın nə dərdi?
Gələn kimi biz cahana
Anamızın sözü-soyu,
Fərəhindən dağlar boyda
Olan boyu
Sığışmadı
Yerə,
Göyə,
Asimana!
Qara gözlü,
şirin sözlü,
bir ay üzlü,
dünənki qız,
Oldu ana, bir oğlana.

Bilmədi ki, qurtarmayıb
Ömür adlı
Yel qanadlı bir mənzilin
Ağır, amma,
Şəkər dolu yükündən o.
Yalnız onu anladı ki,
Gen sinəsi yana-yana
Bir oğlana, oldu ana bu gündən, o!
Günü oldu günəşli, ağ,
İməklədi, qalxdı, qaçdı,
hələ uşaq
Dil də açdı.
Günü oldu kömür kimi
Bala düşdü yatağa.
İstisi var,
Yatmır, yemir, ana demir,
Nə olmuşdur bəs uşağa?
Belə keçdi yüz gününün
Tam əllisi!
Bircə övlad məhəbbəti
Oldu onun təsəllisi!
Neçə dəfə dondu sular,
Neçə dəfə selə döndü.
Neçə dəfə uçdu quşlar,
Neçə dəfə elə döndü.
Bir gün ana
Öz oğluna
şalvar biçdi,
Köynək biçdi.
Gözlərinin işığına,
Gözlərində eynək biçdi...
... Sonra təhsil, dərs,

Sizdən nə gizlətmək
Min cürə həvəs:
Eşq, məhəbbət...
Bunlardan gözəl nə var?

Bir küçədə,
Bir gecədə,
Doğulan uşaqlar,
Çatdılar boya-başa.
Ancaq səhərlər
İşə gedəndə rast gəldi
Yoldaş-yoldaşa.
Bircə analar qaldı eləcə
Nə səhər, nə gecə.
Nə yolları dəyişmədi,
Nə də özləri!
Bir az işıqdan düşdü
Qara gözləri,
Düzü, bir az da
Ağardı birçəkləri
Oğul yolunda,
bala yolunda
İyirmi ildən bəri
Bir küçədə,
Bir gecədə,
Dünyaya bir gəldiyimiz,
Boy atıb dirçəldiyimiz,
Dostumu gördüm bir səhər.
Boylu-buxunlu yoldaşım
Dedi: – yetər,
Bitir iyirmi beş yaşım.
Yığ uşaqları bu axşam
Gəl bizə,
Dostlar yığışacaq
Evimizə.
Bir də... ad almışam,
Alimlik adı...
Onun inadı,
Sındırdı mənim öz inadımı.
Axı, həmin gün anam da qoymuşdu
Mənim adımı.
Getdim!

Stollar baş-başa,
Dostlar yan-yana.
Dolur, – boşalır
Çaxır, araq,
Hesabsız qonaq,
Baldan şirin tostlar
Söyləyir dostlar:
Yoldaşlıq,
qardaşlıq,
sədaqət,
məhəbbət,
Tökülür araya nə ki, var,
Rəqs edir hərlənir adamlar.
Stollar baş-başa,
Dostlar yan-yana...
Gözümə dəyməyir
Adamlar içində bir nəfər,
Bir ana;
Dostumdan soruşdum:
– Hardadır qarı?
Dedi: Soruşma, bəzəməz
Bükük belilə,
Əsən əlilə,
O, buraları...
Gözü də kordur,
Seçə bilməyir
Qaranı ağdan.
Utanaram mən.
O görkəmilə
Çıxsa otaqdan...

Qalxdım,
Dostuma baxdım, baxdım,
Götürdüm bəxşiş gətirdiyim
Çiçək dəstəsini.

Dinləmədim onun evində
Elin şikəstəsini:
"Mən aşiq bağa döndü,
Tum səpdim bağa döndü,
Balam dalımca gəldi,
Ürəyim dağa döndü"
Düşdüm, gedirəm deyə
Birinci mərtəbəyə.
Ananın qapısında
Dayandım.
Keçənləri ötəri andım
Girdim içəri.
Kimi gözləyirmiş
Bayaqdan bəri?
Ana, tez səsə
Ayağa qalxdı.
Nursuz gözlərilə
Elə bil
üzümə baxdı,
Amma, yazıq ki, seçə bilmədi,
Oğul keçsə də oğulluğundan,
Ana analığından
keçə bilmədi!
Dedi: – Ay oğul, boyuna qurban
Hardasan bəs?..
Mən də bayaqdan
Düşünürəm ki, dalımca gəlməz
Məni ana
Bağrına basdı,
Ürəyimin vurmasına
Sanki qulaq da asdı.
Nursuz gözlərini
Ayırmadı gözlərimdən,
O ağbirçək, əyilərək
Qucaqladı dizlərimdən,

Öz balası,
öz doğması
Bildi məni bu kor qadın.
Belə olur öz anası
Hər övladın!
Dedi: – Oğul, gözləyirəm
Apar məni o şənliyə,
Anam deyə...
Görməsə də nursuz gözüm,
Barı gülsün bircə üzüm
Mən bilmədim gələcəksən
Dalımca sən.
Oğul, görüm.
Zaval, qada görməyəsən...

...Əlimdə bir gül dəstəsi,
Qulağımda dostumgildən gələn
Bir el şikəstəsi:
"Balam dalımca gəldi,
Ürəyim dağa döndü"
Söyləmədən bir söz belə.
Çıxdım çölə!
Qoydum evdə ana üçün
Çiçəkləri,
döndüm geri!

BƏNNA

Bənna toz içində, torpaq içində
Bir evdə son daşı qoydu daş üstə.
O, cavan oğlandı boylu-buxunlu
İş vaxtı bir sözu vardı: "baş üstə".

Qurtarıb binada bənna işini,
Alnının tərini qoluyla sildi.
Yığdı baltasını, malakeşini,
Baxdı qurduğuna, qürurla güldü.

Axışdı birbəbir evə köçənlər
Maşınlar həyətdə durdu yan-yana.
– Kömək eləyəydin mümkünsə əgər...
Bir qız yaxınlaşdı cavan oğlana.

Oğlan söz demədi, üç mərtəbəyə
Çiynində daşıdı bir-bir şeyləri.
Üstü toz-torpağa batmasın deyə
Çəkildi kənara o gözəl pəri.

Sonra bir üçlük də uzadıb ona
Qız dedi: – bağışla deyən az oldu.
– İstəməz, almaram, deyirəm bəlkə,
Mənim gördüyüm iş yarıtmaz oldu?

– Çox sağ ol!
– Eviniz mübarək olsun!
Oğlan dönə-dönə etdi dil-ağız
Üstü toz-torpaqlı cavan fəhləni
Razılıq eyləyib yola saldı qız.

Tamam bir il ötdü bu əhvalatdan
Qıza elçi gəldi təzə mənzilə.
Dedilər aləmdir adaxlı oğlan,
Şöhrəti yayılıb obaya, elə.

Sonra qız anası el adətilə
Şirin çay gətirdi düzdü süfrəyə
Elçilər könlü şən, üzləri razı,
Dil-ağız etdilər "mübarək" deyə.

Oğlan da üzük taxdı yar barmağına
Qız da arzusuna çatdı sevincək.
Hamı zarafatla dedi oğlana:
"Bu gündən bu evin oğlusan" demək.

Oğlan qımışaraq söylədi: – düzdür,
Dövran saz gətirib deyən işimi.
Burda üzükdən də qabaq qoymuşam
Baltamı, kərkimi, malakeşimi.

... Gəl dedi, şeyləri daşı, əl yetir
Dedim gözüm üstə ay qız, fərəhlə.
İndi adaxlımdır, sən işə bax bir,
Bugünkü mühəndis, dünənki fəhlə.

Qız nə danışmadı, qız nə dinmədi
Onun dağlar qədər sevinci vardı.
Ayıb olmasaydı bəlkə kim bilir
Oğlanın boynunu qucaqlayardı.

GƏRƏK...

Qoca təbiətin qanunu çoxdur,
Bilinmir hesabı, bilinmir sanı,
Bir kiçik qarışqa nədir ki, o da
Sirr olub, xəyala çəkir insanı.

İllərin günləri sapa düzülmüş,
Payızın qışı var, qışın baharı,
Çox alim yaşamış, çox alim ölmüş,
Hələ sirr içində yaşayır arı.

Buludlar çaxnaşır, şimşəklər çaxır,
Yağış, qar gətirir bizə fəsillər.
Deyirəm tapacaq, tapacaq axır
Dünyanın sirrini gələn nəsillər.

Deyirlər ulduz var ucadan uca,
Güclə görmək olar baxanda yerdən.
Bizim günəşdən də milyon il qoca
Milyon yekəlikdə! Hikmətə bax sən!

Bir insan ömrünə sığmayır cahan,
Yüzü yaşayan da deyir azdır-az!
Bu sirli dünyadan, gözəl dünyadan,
Doğrusu bəs deyib ayrılmaq olmaz.

Qoca təbiətin çoxdur qanunu
Bilinmir hesabı, bilinmir sanı.
Öyrənməkçün onu, sevməkçün onu,
Min il yaşadaydı gərək insanı!

SÖZƏ BAX

Dedilər dostum xəstədir,
yatır bərk.
Getdim, soruşdum halını.
Dedi: – Zəhrimar ürək!
Dedim: – Səbəbi?..
Dedi: – Özüm!
Səni götürmədi gözüm,
Onu götürmədi gözüm,
Axırda özümü
götürmədi gözüm.
Halal eylə yediyimiz
Duzu, çörəyi...
Dedim: – Qınama ağrıyan
Ürəyi, sağalacaq!
Tez ayağa qalx,
Mənə bax,
ona bax,
Özünə bax,
Bu dəfə gəl, Zeynalın
Sözünə bax:
Ürəyin düz olsun,
Gözünü tox elə,
Dostun çox olar.
Dostu çox olanın
Dərdi yox olar.

Dedim, əlini sıxdım,
Çıxdım, üzü gülər!
Bilmirəm qulaq asdı,
Asmadı
Özü bilər...

QULAQ AS

Əzizim, bizim zamanda
Deyirlər dəbdir,
Əzən
üzən xəstəlik
Əsəbdir!
Çalış bir sayaqla
Özünü saxla!
Bir də ağrıyır deyə
Ürəyini tutma,
Görən olar.
Özünü qorxutma
Kiçik ağrılar
Uzun sürən olar.
Yüz il yaşarsan azı!
Yüz baharı, yazı
Yola salarsan
Ürək ağrıların
tuta-tuta.
Şaqraq nəğmələrin
Çatacaq buluda,
Günə, Aya
Ürəyin beləcə
İşləyə-işləyə,
Ağrıya-ağrıya.
Çünki, qulaq as:
Duyan ürəyin var
ağrıyır,
olmasa,
ağrımaz!

BİZİM DÜNYA

Bizim dünyamız
Nə gözəl oğlandır,
Nə gözəl qızdır.
Göz düşə!
O, nəhəng bir
    qarpızdır,
həmişə
    Gip-girdə,
    Səp-sərin,
    Şip-şirin.
Hər qolu güclü
Bıçaq yortub böyrünə,
    Salıb onu bu günə:
    – Sözümü topla, tüfənglə
    deyəcəyəm! – deyib.
    – Səni bir gün özüm
yeyəcəyəm! – deyib.
Amma, dünyanın
        həsrətilə
    Ölən olub,
Onu zorla, güclə
Bölən olub,
Hələ yeyən olmayıb!
Heç vədə olmayacaq!
Dünya hərlənir,
Dünya fırlanır,
Damağı çağ.
Böyründən bütün bıçaqlar
çıxarılacaq!

GÜNLƏR AXSIN...

Gecə xay, gecə ilıq
Ürəyimdə qaynayan
Qıpqırmızı qan kimi!
Xəyallarım aşır-daşır
Başım üstündəki
Aylı-ulduzlu asiman kimi.
Dünən bərli-bəzəkli
Aşqabad evlərindən
Birində qonaq idik –
Səhər uçacaq idik –
Coşqun dəryalar kimi
Dalğalı, ləpəli görünən,
Sinəsində əfi ilanlar sürünən,
Bəzən başsız küləklərin
haray qopardığı,
Ağ qum dağlarını
Bura-bura,
Gah ora, gah bura,
Vura-vura
Alıb apardığı,
Qəlbi yanar, sinəsi qaynar
Səhraların üzərində
Dəmir qanadlarımızı
Açacayıq!
Səhər bir başa
Dönüb quşa,
Aşqabaddan qalxıb,
        Nukusa sarı
            uçacayıq!
Tələsirdik dünən
Dostlarım və mən
Gecəni qova-qova tələsən
            səhər kimi
Əlimizdə ling, çiynimizdə külüng
Olmasa da,
Tələsirdik işə tələsən
Fəhlələr kimi.

Gecə xay, gecə ilıq
Bir payız gecəsi,
Suya batan, sudan çıxan,
Gəmi pərlərinin səsi
Tanışdır, yaxındır,
əzizdir neco!
Kürün də qoynunda
Keçirmişəm mən
Göyləri tərtəmiz
Aylı bir gecə.
Onun hər ləpəsi,
Mehriban səsi
Mənə,
Öz oğluna,
Şirin-şirin
Hikmətli, dərin
Laylalar çalmış,
Nəğmələr demiş.
Burada da salıram nəzər
Milə,
Muğana bənzər
Yerlər var qumlu,
Kollu.
Ağaclar bitir
Sısqa, balaca,
Əyri budaqlı, qollu.
Başımız üstündə
Kohkəşan dərin
Doymaq olmur,
Qurtulmaq daha çətin
Tilsimindən
Aylı-ulduzlu göylərin
İstoyirəm bağıram,
Yerləri, göyləri,
Asimanı var səsimlə
Çağıram,
Deyəm: – gəlin!
Bax belə:

Arxanız yerə,
ana torpağa,
Üzünüz göyə
ulduza, aya baxa-baxa
dincəlin!
Bəli, dincəlin!
Bax, hər yan gözəl:
Yer gözəl,
göy gözəl,
kəhkəşan gözəl!
Uzaqda işığa
Nəzər yetir bir.
O, nə şəhər deyil,
O, nə kənd deyil...
Çoban ocağının işığıdır,
Belə titrəyir.
Havanı iylə,
Gör nə qoxuyur?
Ucsuz-bucaqsız səhra,
Qum, Saqsaul!
Onda deyərsən: insan,
çox yaşa!
Qardaşım, var ol!
Gözəl tanıyırsan
Üstündə dayandığın
Anamız torpağı!
Hər yerə
səhraya, çölə, düzə,
Dəymiş ayağım,
Hər yerdən gəlmiş
Qardaşım,
Vətəndaşım,
dünyadaşım, sorağın,
Nur çilənmiş dağa-daşa.
Yaşa, insan, yaşa!
Haraya dəymiş ayağın,
Haradan gəlmiş sorağın,
Yaşıl, qırmızı gül-çiçək

Bəzəmiş oranı.
Günəşli olmuş oranın
Gündüzü!
Aylı-ulduzlu olmuş
Oranın gecəsi!
Bax belə!
Axan suların səsi
Gör nələr deyir qulağıma,
Qoca Amu-Dərya
Axa-axa,
Axdığı səhraların döşünə
Qırmızı lalələr
taxa-taxa,
Deyir: – arxası torpağa,
Üzü göyə uzanan,
Nə işləməkdən yorulan,
Nə şirin xəyallardan
əl çəkib usanan
Bu torpağın – oğlu!
Sən, məni ram elədin
Demirəm qul kimi.
Sən məni Uzboya çəkdin,
Düz yola saldın,
İstəkli oğul kimi!
Çox yaşa! Var ol!
Türküstan çölləri
Çiçək açanda
Bu yerlərə bir də gəl,
Dincəl!
Sonra qoca Amu-Dəryanın
Düş qabağına,
yol göstər ona
Suları can gətirsin
Vətən torpağına!
Çöllər, düzlər, səhralar
Girsin yaşıl,
qırmızı dona!
Beləcə,

köpüklü sular kimi
Günlər axsın!
Türküstan çölləri ey, insan,
Ey vətəndaşım,
Aləmi heyran buraxsın!

SƏRÇƏ

Yaxşı xatırımdadır,
Yaşım on olmamışdı,
Nə yazdı, nə payızdı,
Şaxtalı, qarlı qışdı,
Dərsə səhər gedərdim,
Məktəb deyildi uzaq.
Həyətdən bir çıxardıq
Hər gün bir dəstə uşaq.
Bir gün elə yağdı qar,
Bir gün elə yağdı qar,
"Görünməyib belə qış",
Söyləyirdi adamlar.
Az qalırdı lap qarın
Altında qala damlar.
Yollara düşməmişdi
Nə bir ləpir, nə bir iz,
O gün evdə oturduq,
Dərsə də getmədik biz.
Xatırımdan keçir bax,
Yenə də bircə-bircə
Doğulduğum köhnə ev,
Oyandığım dar küçə...
Baxtımız gətirmədi,
Yaman şaxtaydı, qardı,
Nə evdən çölə çıxmaq,
Nə oynamaq olardı.
Pəncərədən baxırdım
Küçəyə dörd gözlə mən,
Bayır elə gözəldi,
Bayır elə gözəldi,

Necə deyim, sözlə, mən?
Birdən nə gördüm, aman,
Doğrusu, qorxdum yaman.
Qara bir şey şığıdı,
Pəncərəyə dəydi bərk.
"Bu nə olar?" düşündüm,
Əsməyirdi heç külək.
Nə yumaqdı, nə daşdı,
Kim atmışdı onu bəs?
Sən demə bala quşdu.
Axı, quşlar şaxtaya
Davam gətirə bilməz.
Pəncərəni tez açdım,
Əlimə aldım onu.
Ovucumda saxladım,
Dedim, açılsın donu.
Ovucumun içində
Bir az qızdı bədəni.
Dedim, indi gəl, quşum,
Yedizdirim mən səni.
Ona darı gətirdim,
Qabağına su qoydum.
Tıqhatıqla dənlədi,
Heç demədi ki, doydum.
İsti otaq, bollu dən
Deyən xoşuna gəldi.
Bala quşum hey yedi,
Günü-gündən dirçəldi.
Bala sərçə, ev quşu
Bizə elə alışdı,
Hər şeydən gəldi xoşu.
Məktəbdən dönəndə mən
Tez qanad açardı o,
Evdə o baş-bu başa
Uçardı, uçardı o.
Əlimdə dən tutardım, –
Qolum üstə qonardı.
Çağırardım, baxardı,

Elə bil dil bilirdi,
Elə bil ağlı vardı.
Beləcə keçdi günlər,
Belə ötüşdü aylar,
Əriyib suya döndü
Ləpir-ləpir yağan qar.
Yenə güllə-çiçəklə
Qayıtdı gəldi bahar,
Yenə də hər gün səhər
Qondu budaqlar üstə
Dəstə-dəstə sərçələr.
Yaxşı xatırımdadır
Baxırdım pəncərədən,
Ovucumda tutub dən,
Öz quşumu çağırdım,
Gəlib çiynimə qondu,
Darıya baxdı sərçə,
Sonra həsrətlə küçə
Sarıya baxdı sərçə.
Bu dəfə quş nə uçdu,
Nə də ki, dən dənlədi.
Ürkək nəzərləriylə
Uzaqları dinlədi.
Gördüm bir dəstə sərçə
Toz kimi, duman kimi
Öz üstə cuman kimi
Açıq pəncərəmizin
Qabağına qondular.
Sanki mənim quşumun
Həsrətini qandılar.
Ona gəl deyirdilər,
Sanki söyləyirdilər:

Daha bahardır,
Səfası vardır,
Açıb gül-çiçək.
Çöllərdə boldur
İndi qurd, böcək,

Gəl qoşul bizə
Dostumuz, gedək.
Yerin istidir,
Var suyun, dənin.
Amma unutma,
Sərçədir adın,
Sərçədir sənin.
Yeri budaqda,
Dəni torpaqda
Olar sərçənin.
İsti buxarı,
Ovucda darı,
Heç quş adına
Yaraşmır sənin.
Ovcumdan qalxdı tez
Qanad açdı bala quş.
Evdə o baş bu başa
Bir də uçdu bala quş.
Sonra başıma qondu,
Çiynimə düşdü sərçə,
Sanki mənimlə bir də,
Bir də görüşdü sərçə.
Pəncərədən şığıdı
Qoşuldu sərçələrə,
Daha geri dönmədi,
Qayıtmadı bir kərə.
Yaxşı xatırımdadır.
Neçə gecə yatmadım.
Sərçəni unutmadım
İndi də yerdə, göydə
Nə zaman quş görüncə
Elə bilirəm odur,
Özüdür bala sərçə.

QIZLAR

Biri qaşa bənd olur,
Biri gözə bənd olur.
Biri şirin söhbətə,
Şirin sözə bənd olur.

Birisi uca boyu,
Çox şey biləni sevir.
Biri hər şeydən artıq
Deyib-güləni sevir.

Hər kənddə, hər şəhərdə
Nə çoxdur gözəl oğlan.
Qızlar, xoşlayın, sevin,
Sevmək deyil qadağan!

Gözəllik yaxşı şeydir,
Qoy xoş sifətli olsun,
Otıranda, duranda,
Şirin söhbətli olsun.

Enli kürəklini də
Sevsəniz yaman deyil,
Gödək boyluya amma,
Deməyin oğlan deyil!
Qoy sizi aldatmasın
Bircə üz gözəlliyi.
Zəhərli ilanın da,
Vardır öz gözəlliyi.

Siz ey Vətən qızları,
Ömrünüz bahar olsun!
Sevin, amma ortada
İnam, etibar olsun.
Sevdiyiniz oğlanın

Qoy enli kürəkləri,
Qüvvətli biləkləri,
Şirin sözu, söhbəti,
Ürək açan sifəti,
Qəşəng göz-qaşı olsun.
Qızlar, çalışın, amma,
Bu gözəl oğlanların,
Bir də açıq ürəyi,
Ağıllı başı olsun!

TƏNQİD

Bir adət olmuşdur tənqidçilərdə:
"Yeni söz deməyib şair əsərdə"
Şükr olsun, şairlər çoxdandır bilir,
Bu tənqid özü də yeni deyildir.

"TƏNQİD"

Şimşək bil yol parladı
İşığı aləmi qamarladı.
Titrətdi dağı-daşı
Yaman çaxdı!
Onluq gecə lampası
baxdı-baxdı,
Güldü şimşəyə:
– Bir atım barıtın
Var imiş – deyə.

Daha bilmədi ki,
O ağlı dəyaz;
Lampadan şimşəyə
Əsla tay olmaz!

Təbiət

ƏGƏR BİLSƏYDİ...

Xəzri əsir
uzanır dənizin dili,
Buğum-buğum ləpələr
yalayır sahili.
Aparır qumu,
Gətirir qumu,
Dəniz öz işindədir;
Bilmir heç,
Soruşmur heç
Kim olduğumu.
Oyur qumu,
Yuyur qumu
Ah, bilsəydi,
Ah, bilsəydi
Mənim nələr
duyduğumu!..

YAĞIŞ YAĞIR

Damlalar, damlalar
səs salır hər yana,
İlk bahar, ilk bahar
gəlibdir cahana.
Yağışın səsinə as qulaq,
Dərdi də, qəmi də tez burax!
Səsimiz qarışsın yağışın səsinə,
Sevişək, sevgilim, hicranın üzünü
Çevirək tərsinə.
Yağışa as qulaq,

Dərdi də, qəmi də tez burax!
Damlalar, damlalar azalır,
Səbr elə, sevgilim,
Vüsala az qalır.

GÜLLƏR

Sən təbiətə bax
Sarı, qırmızı, ağ,
Bağlarda, güllər əkilir,
Güllərə gözlər dikilir,
Biri deyir: dərək,
yara göndərək!
Biri deyir: – qoparaq,
yasa aparaq!
Güllər qırmızı, ağ, sarı
Mum kimi!
Elə bil açılmamış
Ölümə məhkum kimi!
Mən deyirəm, əl saxlasın
Yasa da, sevdiyi qıza da
Gül aparanlar!
Gülə də, çiçəyə də
Ömür verək!
Dərməyək onları –
Açılmamış fidanları!
Qoy bol olsun güllər,
Öz budağında açsın,
Ətrini saçsın,
Solsun, tökülsün yerə!
Dostlar, ömür verək,
Həyat verək həyatımızı
Bəzəyən güllərə!

SÖYÜD

İsti yay günündə bir söyüd altda
Uzandım bir qədər dincəlim deyə.
Məni görən kimi kölgəliyində
Başladı yarpaqlar yaman əsməyə.

O, yaşıl söyüdə nə oldu görən
Niyə küyə düşdü o, nədən qorxdu?
Sərin kölgəsində uzananda mən
Külək əsməyirdi, tufan da yoxdu.

Haça yarpaqları qəşəngdi, lakin,
Bir üzü yaşıldı, bir üzü ağdı,
Bir şeyə iki üz verən təbiət,
Məni fikrə çəkdi, heyran buraxdı.

Baxdım mən söyüdə heyrətlə baxdım,
Yarpaqlar pıçhapıç pıçıldaşırdı.
Barsız iki rəngli bu yarpaqlara
Gizli pıçıltılar çox yaraşırdı.

Durdum qəmli-qəmli düzəldim yola,
Dedim: – açıq olar hər sözü mərdin.
Ayağın olsaydı bu pıçhapıçla,
Yüz illik dostları düşmən edərdin.

HƏYAT VERƏK

Sən təbiətə bax
Sarı, qırmızı, ağ,
Bağlarda, güllər əkilir,
Güllərə gözlər dikilir,
Biri deyir: – dərək,
Yara göndərək!